QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 205 (6169) 18 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edib

Bax 7



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Dirçəliş Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını Milli Dirçəliş Günü münasibətilə...

# "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir"



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar

Bax 2

## Vladimir Putin: "Qarabağ münaqişəsi ədalətlə həll olunub"

Qarabağ münaqişəsi ədalətlə həll olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin BRİKS sammitində bəyan edib. RF lideri deyib: "Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsi sentyabr ayında gərgin fazaya keçib. Rusiya tərəfi bizə dost olan iki...



Bax 7

## Rusiyanın "məşuqəsi" Qərbin qucağında



Ermənistanın baş naziri kreslosunda oturan küçə nümayişçisi, hakimiyyəti qorumaq üçün hər şeyi edir. Bir zamanlar belində çanta küçələrdə gəzən küçə nümayişçisi, daha doğrusu küçə uşağının, hakimiyyətə...

Bax 14

## Rusiya eksperti: "Paşinyan müharibənin baş verməsi üçün hər şeyi etdi"



"Pravda"nın internet tv variantında baş redaktor İnna Novikovaya müsahibə verən Rusiya hərbi eksperti, "Milli Müdafiə" jurnalının rəhbəri İqor Korotçenko son günlərdə baş verən ən...

Bax 10

## Türkiyə Parlamenti təsdiqlədi: Azərbaycana hərbi qüvvələr göndərilir

Bax 7



Türkiyə Böyük Millət Məclisi Azərbaycana hərbi qüvvələr göndərilməsi ilə bağlı qanun layihəsini təsdiqləyib. SİA-nın məlumatına görə, layihə parlamentin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb və qəbul edilib. Layihəyə əsasən...

## ŞOK VİDEO: Düşmən bazasında 3 gün!



## Paşinyan kimilər ağzı ətə çatmayanda...



Bax 13

## Vüqar Rəhimzadə: "Xalq ona qələbə hisslərini yaşadan Ali Baş Komandana öz sevgisini nümayiş etdirir"



Bax 9

# "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar*

## Rəsmi xronika

Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Hərbi Vəzifə Və Hərbi Xidmət Haqqında" Azərbaycan Respublikasının Qanununda Dəyişiklik Edilməsi Barədə" Azərbaycan Respublikasının 2020-Ci Il 27 Oktyabr Tarixli 191-VIQD Nömrəli Qanununun Tətbiqi Və "Hərbi Vəzifə Və Hərbi Xidmət Haqqında" Azərbaycan Respublikası Qanununun Tətbiqi Və "Azərbaycan Respublikasının Səfərbərlik Və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti Haqqında Əsasnamə"Nin Təsdiqi Barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-Ci Il 13 Fevral Tarixli 593 Nömrəli Fərmanında Dəyişiklik Edilməsi Haqqında Fərman imzalayıb.



***Xəbər verdiyimiz kimi, noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış oldular.

Prezident İlham Əliyev:

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

**"Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır"**

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.





Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən - Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq.

Ardı Səh. 3

# “Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar*





Əvvəli Səh. 2

Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üzüzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir - evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil. Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdirdilər.

**Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır**

***

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə-yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər.



Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı.

Ardı Səh. 4

# “Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar*








**Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik**



**Əvvəli Səh. 3**

Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı.

Prezident İlham Əliyev:

-Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik - münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanafob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar.

*Ardı Səh. 5*

# "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar*

Əvvəli Səh. 4

Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm, əminəm ki, onlar tezliklə normal həyata qayıdacaqlar, onlar daim diqqət mərkəzində olacaqlar.



**Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik**

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

x x x





ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları gördü və avtomobili saxlayaraq onlarla görüşdü.

x x x

Cəbrayıla gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır. Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir.

Ardı Səh. 6

# “Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar*

Əvvəli Səh. 5

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın.

Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq.

Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub. Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik. Bu da Xudafərin su anbarıdır. Bizdən aşağıda Araz çayıdır. İndi tunelə giririk. O tərəf qonşu dövlət İran İslam Respublikasıdır.

x x x

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Bu anlar da









tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq.

Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzdilər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirdilər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşdülər. Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir.

Prezident İlham Əliyev: Cəbrayıl şəhərinə giririk. Düşmən burada özü üçün hərbi hissələr yaradıb. Şəhərdə hərbi hissələrdən başqa bir şey yoxdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəldilər.

Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırdı.

Prezident İlham Əliyev: Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Gedək baxaq bəzi binalara.

Bura düşmənin polis idarəsi olub. İndi Azərbaycan polisi keşik çəkir.

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq. Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyublar. Otuz il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb.

Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək.

Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq.

Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü münasibətilə xalqımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Dirçəliş Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını Milli Dirçəliş Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, həmvətənlərimizin hər birinə möhkəm cansağlığı, sevgi və səadət diləyirəm!

Bu gün bizim hamımızı Vətənimizə ən nurlu, səmimi hisslər, ona, onun uğurlarına, nailiyyətlərinə və qələbələrinə görə qürur duyğuları birləşdirir! Qoy Azərbaycan xalqının həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Qoy Azərbaycanda daim sülh, firavanlıq və təhlükəsizlik hökm sürsün! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!".

## Türkiyə KİV-ləri: Prezident İlham Əliyev işğaldan azad olunmuş Füzuli və Cəbrayıla qələbə səfəri edib

Türkiyə kütləvi informasiya vasitələri (KİV) noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri barədə geniş məlumatlar yaymaqda davam edir.




AZƏRTAC xəbər verir ki, qardaş ölkə mətbuatı dövlətimizin başçısının yerlərdə xalq tərəfindən böyük coşqu ilə qarşılanması, səmimi ünsiyyəti, çıxışlarında işğaldan azad olunan torpaqlarda həyatın normala dönməsi ilə bağlı səsləndirdiyi fikirlər əsas xəbərlər kimi yayıb.

Türkiyə mediası, həmçinin Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqlarda olmasını Qarabağa qələbə səfəri kimi dəyərləndirib. Telekanallar da bu səfərlə bağlı geniş reportajlar yayıb. Müzəffər Ordunun qazandığı qələbədən sonra Azərbaycanda ruh yüksəkliyi və işğalçı Ermənistandakı ictimai-siyasi gərginlik müqayisəli şəkildə təhlil olunur.

## Türkiyə Parlamenti təsdiqlədi: Azərbaycana hərbi qüvvələr göndərilir



Türkiyə Böyük Millət Məclisi Azərbaycana hərbi qüvvələr göndərilməsi ilə bağlı qanun layihəsini təsdiqləyib. SİA-nın məlumatına görə, layihə parlamentin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb və qəbul edilib. Layihəyə əsasən, Türkiyə hərbçiləri 1 il müddətinə Dağlıq Qarabağdakı Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzində fəaliyyət göstərəcəklər.

## Vladimir Putin: "Qarabağ münaqişəsi ədalətlə həll olunub"



Qarabağ münaqişəsi ədalətlə həll olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin BRİKS sammitində bəyan edib. RF lideri deyib: "Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsi sentyabr ayında gərgin fazaya keçib. Rusiya tərəfi bizə dost olan iki dövlət arasında döyüş əməliyyatlarını dayandırmaq və onları münaqişənin kompromisli həllini tapmağa sövq etmək üçün çox fəal səy göstərib. Bizim vasitəçiliyimiz nəticəsində noyabrın 10-da atəşin tam dayandırılması və Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə razılaşma əldə olunub. Bütün bunlar Rusiya və Azərbaycan prezidentlərinin, habelə Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli bəyanatda təsbit olunub".

Tərəflər arasında razılaşmaya riayət olunduğunu qeyd edən Rusiya Prezidenti Vladimir Putin daha sonra deyib: "Döyüş əməliyyatları tamamilə dayandırılıb, vəziyyət sabitləşir. Beləliklə, böhranın uzunmüddətli və tamformatlı nizamlanması üçün ədalətli əsasda, həm Azərbaycan, həm də erməni xalqlarının maraqlarına uyğun şərait yaradılıb".

## General Safonov: "Şuşanın böyük dağıntılara yol verilmədən qaytarılmasını Azərbaycan Silahlı Qüvvələrinin unikal əməliyyatı hesab edirəm"



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam etmiş əks-hücum əməliyyatında Azərbaycan Ordusu böyük qələbələr qazandı, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı.

Bununla əlaqədar, AZƏRTAC istefada olan general-mayor, hərb elmləri namizədi, Azərbaycan SSR-in keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti xüsusi rayonunun və ona bitişik rayonlarının komendantı, SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Şimali Qafqaz və Zaqafqaziya üzrə İdarəsinin rəis müavini (may 1988-dekabr 1990) olmuş Vladislav Nikolayeviç Safonova müraciət edərək son döyüş əməliyyatları barədə fikirlərini bölüşməsini xahiş edib. Həmin müsahibəni oxuculara təqdim edirik.

-Vladislav Nikolayeviç, Siz Ermənistan-Azərbaycan münaqişəsi barədə kifayət qədər məlumatlı adamsınız, çünki 1988-1990-cı illərdə Siz DQMV xüsusi vəziyyət rayonunun ilk komendantı olmuşunuz. 28 ildən sonra Azərbaycan öz ərazilərini işğaldan azad edib. Siz 1990-cı illərin əvvəlindəki müharibə ilə 2020-ci ildəki müharibəni, qarşıdurma vəziyyətində olan orduların imkanlarını müqayisə edə bilərsinizmi?

-1988-1990-cı illərdə SSRİ-nin partiya-sovet rəhbərliyinin zəiflədiyi, ölkənin parçalanma həddində olduğu, "xalq demokratiyası"nın inkişaf etdiyi dövrdə hakimiyyət uğrunda mübarizə genişləndi, Azərbaycanda və Ermənistanda kommunist partiyası mərkəzi komitələrinin birinci katibləri dəyişdirildi.

Bakıda DQMV ilə iş bütünlüklə Xüsusi İdarəetmə Komitəsinə və hüquq-mühafizə orqanlarına həvalə edildi, respublikada milis dəstələri və könüllü xalq hərəkatı formalaşdı. Hərb işinin öyrədilməsinə, təchizat və silahlanma məsələlərinə xüsusi əhəmiyyət verilmirdi. Döyüş əməliyyatları aparılmasına hazırlıq getmirdi.

Dağlıq Qarabağda isə başqa vəziyyət yaranmışdı. DQMV erməniləri Ermənistanın, habelə Amerikada və Avropa ölkələrində fəaliyyət göstərən erməni diasporlarının dəstəyi ilə planauyğun, lakin gizli şəkildə müharibəyə hazırlaşır, silah, sursat və hərbi texnika toplayırdı.

DQMV ərazisində aşkar edilmiş hərbi düşərgələr və silah anbarları barədə Azərbaycan rəhbərliyinə dəfələrlə məruzə edilmişdi.

1990-cı illərin əvvəlində Sovet İttifaqı dağılandan sonra Ermənistan DQMV-nin və ona bitişik yeddi Azərbaycan rayonunun ərazisini işğal etdi. Yüz minlərlə azərbaycanlı işğal edilmiş ərazilərdən qovuldu, xeyli insan həlak oldu, çoxları evsiz-eşiksiz qaldı.

Prezident Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycanın dirçəlişi və peşəkar hərbi kadrlar yetişdirilməsi başlandı. Atasına xas olan bir sıra xüsusiyyətləri özündə cəmləşdirən, geniş təfəkkürlü, əsl ziyalı olan İlham Əliyev həm ölkənin layiqli Prezidenti, həm də istedadlı sərkərdə olduğunu göstərdi. Bu yaxınlarda müşahidə etdiyimiz hadisələr - Ermənistan ordusunun darmadağın edilməsi, müasir texniki vasitələrdən istifadə edilməklə ərazilərin işğaldan azad edilməsi, dağlıq-meşəlik və düzənlik ərazilərdə döyüş əməliyyatlarının taktiki fəndlərinin tətbiq edilməsi, şəxsi heyətin dözümlülüyü və fədakarlığı Azərbaycan Silahlı Qüvvələrinin üstünlüyünün birbaşa sübutudur.

-Siz bizə verdiyiniz müsahibələrin birində demişdiniz ki, Şuşa şəhərinin təslim olmasına inana bilmirdiniz. Bəs indi Şuşanın Azərbaycan Ordusu tərəfindən qaytarılmasına münasibətiniz necə oldu? Siz bu əməliyyatı necə qiymətləndirirsiniz?

- Azərbaycan Ordusu tərəfindən Şuşanın böyük dağıntılara yol verilmədən, mədəniyyət abidələri qorunub saxlanılmaqla qaytarılmasını Azərbaycan Silahlı Qüvvələrinin unikal əməliyyatı hesab edirəm. Eyni zamanda, Ermənistan silahlı qüvvələri tamamilə iflic edildi.

-Siz Qarabağ münaqişəsi zonasında sülhyaratma əməliyyatlarının rusiyalı hərbçilər tərəfindən həyata keçiriləcəyi, atəşkəs rejiminə nəzarət üzrə sülhyaratma mərkəzinin yaradılacağı, həmin mərkəzə rusiyalı və türkiyəli sülhməramlıların cəlb ediləcəyi barədə xəbəri necə qəbul etdiniz? Siz sülhməramlıların fəaliyyətinin gələcəyini necə təsəvvür edirsiniz?

-Sülhyaratma əməliyyatının rusiyalı hərbçilər tərəfindən həyata keçiriləcəyini mən əvvəlcədən təsəvvür edirdim. Qarabağda və Azərbaycanın bütün ərazisində sülh və asayiş bərqərar olmasında Rusiya hamıdan çox maraqlıdır. Mən başa düşürəm ki, bu, ağır prosesdir və həqiqi sülhün bərqərar olmasını hələ çox gözləmək lazım gələcək. Atəşkəs rejiminə nəzarət üzrə sülhyaratma mərkəzinin yaradılması, həmin mərkəzdə rusiyalı və türkiyəli sülhməramlıların cəlb edilməsi isə Rusiya və Türkiyə müdafiə nazirlərinin memorandumunda müəyyən edilib. Bu məsələ müzakirə olunmur.

Sülhməramlıların fəaliyyəti qan tökülməsini dayandırmağa imkan verib, dinc həyata qayıtmaq üçün şərait yaradacaq, habelə hərbi qisasa çağıran təhrikçiləri bir qədər sakitləşdirəcək.

# Milli Məclis sədrinin müavini: Xalq Müzəffər Ali Baş komandanı ilə qürur duyur

***Erməni hərbi birləşmələri üzərində qazanılmış tarixi Qələbədən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri dövlətimizin başçısının sevinc hisslərini, ilk növbədə, xalqla bölüşmək arzusundan irəli gəlir. Onun həmin bölgələrdə yaşayan əhali tərəfindən böyük coşqu və izdihamla qarşılanması isə xalqın öz Liderinə, müzəffər sərkərdəsinə bəslədiyi ehtiramın təzahürüdür.***



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib. Əli Hüseynli bildirib: "Bu, həm də onu göstərir ki, təhlükələrdən və çətinliklərdən çəkinməyən, öz xalqının maraqları naminə qətiyyətlə mübarizə aparan Prezident İlham Əliyev cəsarətli addımları və siyasi iradəsi ilə seçilən Liderdir. Bütün dövrlərdə və yaşanan hadisələrdə, ən ağır vəziyyətlərdə belə öz xalqının yanında olan Prezident hər bir işdə xalqın dəstəyinə arxalanır, ona güvənir. Ordunun qüdrətinə inam hissi, həmçinin ölkədəki milli və siyasi həmrəylik yaşadığımız Qələbənin ideoloji əsasına çevrilərək Prezidentin "Biz birlikdə güclüyük!" şüarı altında xalqın dəmir yumruq kimi birləşməsini təmin edib. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyətinin Vətən müharibəsinin ilk günlərində yaydığı birgə bəyanat da bu baxımdan böyük əhəmiyyət kəsb edir".

Komitə sədrinin sözlərinə görə, öz işğalçılıq siyasətinin qurbanına çevrilmiş və üsyana qalxmış insanların qəzəbindən qorxub gizlənən Ermənistanın üzdəniraq baş naziri Paşinyandan fərqli olaraq, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, bu gün də öz xalqının yanındadır. Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına tarixi səfər etməklə "Qarabağ Azərbaycandır və nida" ifadəsinin müəllifi kimi bir daha xalqa verdiyi bütün vədlərə sadiqliyini nümayiş etdirdi. Bununla da siyasətdə, diplomatiyada və hərbi strategiyada Prezident İlham Əliyevin adı bu zəfərin müəllifi kimi tarixə yazıldı.

"Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm", - söyləyən Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə, eyni zamanda, hər bir hərbçinin Ali Baş Komandanı olduğunu sübut etdi. Azərbaycan Ordusu ilə döyüş meydanında məsuliyyətli davranışı nəticəsində Qələbənin mənəvi çəkisini daha da artırmış oldu. Bu, ilk növbədə, Müzəffər Ali Baş Komandanın beynəlxalq hüquq normalarına hörmətindən irəli gələn siyasi və hərb mədəniyyətinin təzahürüdür. Çünki erməni əsgərindən fərqli olaraq, mülki əhaliyə atəş açmayan, məsuliyyətli davranış nümayiş etdirən, eyni zamanda, humanist dəyərləri qoruyan bu ordu bölgədə sülhün və tərəqqinin təminatçısına çevrilmiş güclü dövlətin Silahlı Qüvvələridir. Əli Hüseynli vurğulayıb ki, səfər zamanı Xudafərin körpüsünü ziyarət etməsi dövlətimizin başçısının şərəfli Azərbaycan tarixinə və mədəni irsinə münasibəti baxımından rəmzi məna daşıyır və ibrətamizdir. Müzəffər Ali Baş Komandanın ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birgə işğaldan azad olunmuş ərazilərə səfəri Qələbəni şübhə altına salmaq istəyən bədxahlara sanballı bir mesaj kimi bütün mülahizələrə nöqtə qoymuş oldu.

# Bolqarıstan kanalında Azərbaycanın mədəni irsinin Ermənistan tərəfindən dağıdılması barədə məlumat verilib




***Noyabrın 17-də Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova bu ölkənin aparıcı televiziya kanallarından olan "Televiziya Evropa"nın "Svobodna zona" verilişinin aparıcısı, tanınmış telejurnalist Qeorqi Koritarovun canlı efirdə qonağı olub.***

AZƏRTAC xəbər verir ki, bir saat davam edən müsahibə zamanı səfir Ermənistanın ölkəmizə qarşı 30 il davam edən hərbi təcavüzü, Qarabağ bölgəsi daxil olmaqla ölkəmizin işğal altındakı bütün ərazilərinə dəymiş ziyan, aparılmış qanunsuz məskunlaşma, Azərbaycan xalqının mədəni irsinin Ermənistan tərəfindən talan olunması barədə məlumat verib.

Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında imzalanmış üçtərəfli bəyanata uyğun olaraq Kəlbəcər, Laçın və Ağdam rayonlarının müvafiq cədvələ uyğun olaraq Azərbaycana geri qaytarılmalı olduğunu bildirən səfir münaqişənin tarixi barədə məlumat verib. O, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma torpaqlarından didərgin düşdüyünü deyib. Diplomat konkret şəkillər göstərməklə 1993-cü ildə Ermənistan tərəfindən Kəlbəcər rayonunun işğalı zamanı azərbaycanlı mülki əhaliyə, sadəcə, 10 saat vaxt verildiyini, onların yaşadıqları evlərdən ayaqyalın getmək məcburiyyətində qaldıqlarını, indi isə Azərbaycan tərəfindən humanizm nümayiş etdirərək Kəlbəcərdə qanunsuz yaşayan şəxslərin bu bölgəni tərk etmələri üçün əlavə 10 gün möhlətin onlara verildiyini diqqətə çatdırıb.

Hazırda Ermənistan tərəfindən işğal olunan ərazilərə və cəbhə zonasından uzaqda yerləşən şəhər və kəndlərə vurulmuş ziyanın hesablandığını bildirən səfir 44 gün ərzində aparılan hərbi əməliyyat zamanı Azərbaycan tərəfindən həlak olmuş mülki əhalinin sayına və mülki infrastruktura dəymiş ziyana diqqət çəkib.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycanın mövqelərini atəşə tutduğunu bildirən səfir BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq Azərbaycanın özünümüdafiə və işğal olunmuş ərazilərini azad etmək hüququna sahib olduğunu vurğulayıb.

Türkiyənin regiondakı rolu barədə sualı cavablandıran səfir Türkiyənin son hərbi əməliyyatlar zamanı ölkəmizə yaxın və dost ölkə olaraq yalnız siyasi dəstək verdiyini, ölkəmizin 100 min nəfərdən ibarət nizami orduya və ən müasir hərbi texnikaya malik olduğunu və hər hansı kənar qüvvənin hərbi yardımına ehtiyacının olmadığını qeyd edib.

Bununla yanaşı, Azərbaycanın işğal olunmuş ərazilərində tarixi və dini abidələrə qarşı Ermənistan tərəfindən törədilmiş vandalizm aktları müvafiq şəkillərdən istifadə etməklə bolqar tamaşaçılarının diqqətinə çatdırılıb. Bu xüsusda, Azərbaycanın xristian mirası və ölkəmizdə mövcud multikulturalizm ənənələri barədə ətraflı məlumat verilib.



# Özbəkistan portalları Azərbaycan Prezidentinin və birinci xanımın Füzuli və Cəbrayıl rayonlarına səfəri barədə materiallar yerləşdirib

Özbəkistanın "qalampir.uz" və "aniq.uz" portalları öz səhifələrində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfəri ilə bağlı özbək dilində məqalələr yerləşdirib.

Portallar yazır ki, Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilməsi ilə bağlı göstəriş verib. Artıq bu yolun salınmasına başlanıb. Saytlar bildirir ki, Prezident İlham Əliyev ermənilər tərəfindən dağıdılan Füzuli şəhərində Azərbaycan bayrağını qaldırıb. Deyilir ki, yalnız Füzuli deyil, işğaldan azad edilən Zəngilan, Qubadlı və Cəbrayıl şəhərləri və kəndlər də yerlə- yeksan edilib, bütün infrastruktur dağıdılıb.

Yazılarda bildirilir ki, sonra Prezident İlham Əliyev Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilində gəziblər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdiriblər.

Sonra dövlətimizin başçısı Cəbrayıl şəhərində də Azərbaycan bayrağını qaldırıb. Prezident İlham Əliyev Cəbrayılın mərkəzində deyib: "Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər".

# "Qənimətlər aktlaşdırılır və inventar dəyəri hesablanır"

"Birinci olaraq qiymətləndirmə aparılacaq. Nəzərə alsaq ki, dəymiş ziyanın qiymətləndirilməsi çox vacibdir və hətta bununla bağlı sonradan Azərbaycan beynəlxalq məhkəməyə müraciət edərək, təzminatın ödənilməsinə çalışacaq". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov deyib.



Millət vəkilinin sözlərinə görə, əvvəlki dövrlərdə olan nümunələr də göstərir ki, təzminatın ödənilməsi mümkündür. "Azərbaycan təbii ki, dəymiş ziyanı qiymətləndirdikdən sonra beynəlxalq məhkəmə vasitəsi ilə Ermənistandan həmin təzminatı tələb edəcək. Eyni zamanda təbii ki, qiymətləndirmə ilə yanaşı həm də bərpa işləri, xüsusən də infrastrukturun bərpa işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Artıq qənimət kimi ələ keçirilən texnikanın dövlət qurumları tərəfindən aktlaşdırılması və onun inventar dəyərinin hesablanması həyata keçirilməkdədir. Bu da ondan xəbər verir ki, artıq həmin rayonlarda, xüsusən də işğaldan artıq azad olunmuş dörd rayonumuzda kənd təsərrüfatının planlaşdırılması, sənaye müəssisələrinin formalaşdırılması və inkişafı ilə bağlı ilkin müzakirələr var və xüsusən də kənd təsərrüfatının fərqli istiqamətlər üzrə formalaşması ilə bağlı qiymətləndirilmələr aparılır. Çünki, bəzi rayonlarımızda heyvandarlıq, bəzi rayonlarımızda isə əkinçilik inkişaf etmişdir. Xüsusən də, əkinçilikdə hansı məhsullara daha çox ehtiyac olması da vacib məsələdir. O baxımdan bu, nəticə etibarı ilə imkan verəcək ki, biz işğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatını yenidən inkişaf etdirə biləк. Bütövlükdə, Azərbaycan yeni bərpa və quruculuq mərhələsinə qədəm qoyur və bu da nəticə etibarl ilə imkan verəcək ki, işğaldan azad olunmuş torpaqlarımız iqtisadiyyatımıza xüsusi töhvə versin. Biz işğaldan azad olunan torpaqlarımızda həyatın, gülüşün çox qısa zamanda geri qayıtmasını müşahidə edəcəyik", deyə Vüqar Bayramov bildirib.

***İnam Hacıyev***

# Vüqar Rəhimzadə: "Xalq ona qələbə hisslərini yaşadan Ali Baş Komandana öz sevgisini nümayiş etdirir"



***"Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Döyüş meydanında darmadağın edilən Ermənistan ordusunun artıq təslim olmaqdan başqa yolu yox idi.***

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin imzaladıqları bəyanatla ordumuzun hərbi cəbhədəki qələbəsi diplomatik cəbhədə də rəsmiləşdirildi. 30 ilə bərabər 44 gün xalqımızın illər uzunu davam edən torpaq həsrətinə son qoydu, ədalət bərpa olundu. Artıq öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımış Böyük Qayıdışın sevincini yaşayır, aranlı-dağlı Qarabağa yeni nəfəs gəlir, "Mən artıq köçkün deyiləm" ifadəsi daha çox səslənən və sevincimizə sevinc qatan fikir kimi hər birimizi qürurlandırır". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 44 günlük Vətən müharibəsinin yekununda dövlətimizin başçısı İlham Əliyev qalib Sərkərdə, Azərbaycan Ordusu ən güclü ordu, xalqımız isə ən böyük, məğrur, yenilməz xalq olduğunu bir daha təsdiqlədi: "Noyabrın 16-da Füzuli rayonuna səfəri zamanı bölgələrdə yaşayan sakinləri salamlamaq üçün avtomobilini saxlayaraq düşən Prezident İlham Əliyevin əhali tərəfindən xüsusi coşqu, izdihamla, sonsuz sevinc hissi ilə qarşılanması da xalqın özünün Müzəffər Ali Baş Komandanına hüdudsuz sevgisinin və ehtiramının təcəssümü idi. Həmin məqamda ona qələbə sevincini yaşadan Prezidentinə, Ali Baş Komandanına xalq sonsuz sevgisini bir daha nümayiş etdirdi. Cənab İlham Əliyev hər zaman çıxışlarında bu reallığı önə çəkir ki, daim xalqa arxalanır, ondan güc alır, qəbul etdiyi qərarlarda Prezident-xalq birliyi əsas yer tutur. Təbii ki, hər zaman dövlətinin, xalqının bu gününü və gələcəyini düşünən, qətiyyətli mövqeyi ilə işğalçı Ermənistana və onun havadarlarına tarix, hüquq və milli qürür dərsi keçərək 30 ilin işğalına son qoyan ölkə Prezidentinə milyonların sevgisi şəksizdir. Qələbədən sonra bölgələrə ilk səfərini edən Prezident İlham Əliyev əslində böyük zəfərdən doğan sevinc hisslərini öz xalqı ilə bölüşmüş oldu".

"Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı bu gün xalqın qalib ruhunun güzgüsüdür" söyləyən baş redaktor vurğulayıb ki, xalqın orduya inamı və dəstəyi, həmçinin ölkədə hökm sürən milli və siyasi həmrəylik şanlı qələbəmizin ideoloji əsasıdır: "Hər zaman Prezidentinin ətrafında sıx birləşən, həyata keçirdiyi siyasətə dəstək olan, irəli sürdüyü bütün təşəbbüsləri dəstəkləyən xalqımız 44 gündə daha möhkəm yumruq kimi birləşdi. Cənab İlham Əliyevin mövqeyindən bir addım belə geri çəkilməməsi, 44 gündə xarici mediaya verdiyi 30-a yaxın müsahibəsində işğalçı dövlətə və onun havadarlarına ünvanladığı sərt mesajlar artıq ədalətin bərpa olunması zamanının çoxdan keçməsinə, amma hələ də dünyanın yalanları ilə münaqişənin həllini uzatması cəhdlərinin qəbuledilməzliyinə işarə idi. Dövlətimizin başçısı xalqa hər müraciətində haqqa, ədalətə söykənərək işğal altında olan bütün torpaqlarımızın azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərimizdə dalğalanacağını böyük inamla bildirirdi. Bu qələbə son 17 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən, Azərbaycana ən möhtəşəm uğurlar qazandıran Prezident İlham Əliyevin ata vəsiyyətini yüksək səviyyədə yerinə yetirdiyinin xalqımıza təqdimatı idi. Cənab İlham Əliyev Qarabağın tacı, ürəyi olan Şuşamızın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən bu fikri xüsusi olaraq vurğuladı ki, Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

Vüqar Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının həyatiliyini artıq reallıqda işğalçı Ermənistana, ona dəstək olan aparıcı dövlətlərə və nüfuzlu beynəlxalq təşkilatlara sübut etdi: "Bu gün bu fikri böyük qürurla qeyd edə bilərik ki, dövlətimizin başçısı İlham Əliyevin Füzuli və Cəbrayıl rayonlarına səfəri qələbənin nidasıdır. 44 günlük müharibənin yol açdığı tarixi qələbə münaqişə tərəfləri arasında köklü fərqi bütün sahələrdə dünyaya çatdırdı. Ermənistan heç zaman Azərbaycanla hansısa sahədə rəqabət aparmaq imkanında deyildi. İşğalçı dövlətin baş naziri Nikol Paşinyan münaqişənin diplomatik yolla həllinin mümkünsüzlüyünü bəyan edib, ordusu haqqında güclü imic yaratmağa çalışsa da, 44 günlük müharibənin gedişində ortaya çıxan reallıqlar onun hər bir bəyanatının xülya olduğunu təsdiqlədi. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini diz çökdürdü. Saysız-hesabsız hərbi texnikalarını məhv etdi və qənimət kimi götürdü. Müharibənin fərqli nəticələrindən biri də budur ki, Ermənistanda ola-ola öz xalqından gizlənən məğlub Paşinyanı gördüyümüz zaman Azərbaycanda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev rəşadətli Ordumuzla qələbə bayramlaşması üçün Füzuli və Cəbrayıl rayonlarına səfər etdi. "Qarabağ Azərbaycandır və nida" deyən Prezident İlham Əliyev Füzuli və Cəbrayıl rayonlarına səfəri ilə həmin nidanı qoymuş oldu. Siyasətdə və müharibə meydanında, diplomatiyada və hərbi strategiyada üstünlük qazanmış Prezident İlham Əliyev bu zəfərin müəllifidir. Prezidentin 16 noyabr səfəri qalib xalqın qəhrəman Ali Baş Komandanının səfəridir. Bu, tarixi bir səfərdir".

## Hikmət Babaoğlu: "Fransız xalqının maraqları bir qrup ermənininin girovuna çevrilməməlidir"



Paris meriyasının artıq mövcud olmayan hansısa Dağlıq Qarabağ adlı nəyisə tanımaq həvəsinə düşməsi gecikmiş və puc olmuş siyasi romantizmdən başqa bir şey deyil. Görünür, kimlərəsə yeni avtoritar populizm lazımdır və konkret olaraq Fransa paytaxtının meri Ann İdalqo bununla məşğuldur. Əslində, onu bu cür qeyri-qanuni addımlara təşviq edən də erməni lobbisi və Fransada olan ermənipərəstlərdir. Biz bilirik ki, Paris Şurası 163 nəfərdən ibarətdir. Şura şəhər merini və onun 40 müavinini seçir. Hazırda isə Fransa prezidenti Emmanuel Makronun yaratdığı və rəhbərlik etdiyi "İrəli" partiyası Şurada geniş şəkildə təmsil olunur. Ona görə də belə düşünməyə əsasımız var ki, bu məsələ, sadəcə, Paris meriyasının deyil, həm də sentyabrın 27-dən başlayaraq Azərbaycanın beynəlxalq hüquqa söykənən haqq işinə qarşı təxribatçı fikirlər səsləndirən bəzi fransız rəsmilərin də təşəbbüsüdür.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

H.Babaoğlu qeyd edib ki, mer Ann İdalqonun Fransa erməniləri ilə sıx əlaqələri var. Hətta onun müavinlərindən biri erməni əsilli Anuş Toronyandır. Anuş Toronyan isə Fransa ermənilərinin təşkilatı olan CCAF-ın rəhbəri Ara Toronyanın qızıdır. Bu fakt özlüyündə Paris meriyasının atmaq istədiyi qeyri-qanuni addımın kökündə nələrin dayandığını yaxşı izah edir. Ancaq bu da məsələnin hamısı deyil.

Deputat diqqətə çatdırıb ki, hələ 2015-2018-ci illərdə Parisin meri Anna İdalqo Ermənistan prezidenti Serj Sarkisyanla 4 dəfə görüşüb. Ann İdalqo Ermənistanda yaradılmış TUMO (Center for Creative Technologies) mərkəzinin Paris bölməsinin açılışında iştirak edib və hərtərəfli dəstək göstərib. TUMO-nun Xankəndidə də ofisi olub. Bütün bunlar erməni lobbisinin davamlı səyləri nəticəsində baş tutub.

Hikmət Babaoğlunun sözlərinə görə, Paris meriyası hazırda belə spekulyativ hərəkətlər edir. Ancaq Paris kimi böyük bir şəhərin meriyasının, yaxud fransız xalqının maraqları bir qrup ermənininin girovuna çevrilə bilməz və çevrilməməlidir. Bu təşəbbüsə dəstək verənlər sonda ya peşman olmağa, ya da geriyə addım atmağa məhkumdurlar.

# "Azərbaycan milli mətbuatı - Müstəqillik illərində" mövzusunda videokonfrans keçirilib

***Dünən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Azərbaycanda Milli Mətbuatın yaranmasının 145 illiyinə həsr edilmiş "Azərbaycan milli mətbuatı - Müstəqillik İllərində" mövzusunda videokonfransı keçirilib.***

SİA-nın verdiyi məlumata görə, videokonfransı giriş sözü ilə açan UNEC-in ekspertiza və standartlaşdırma fakültəsinin dekan müavini, dosent Elçin Səmədov bildirib ki, Azərbaycan hökuməti hər zaman mətbuatın azad inkişafına diqqət yetirib, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə önəm verib, KİV-lərin cəmiyyətdə rolunu yüksək dəyərləndirib. Ulu öndər Heydər Əliyevin müstəqillik illərində ölkədə jurnalistika və jurnalistlərlə bağlı problemlərin həlli istiqamətində atdığı mühüm addımlar bu sahənin sürətlə inkişaf etməsinə, KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Prezident İlham Əliyev tərəfindən də hər zaman Azərbaycanda mətbuatın tərəqqisi, jurnalistlərin stimullaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Dövlətimizin başçısının Azərbaycan milli mətbuatının 130, 135, 140 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları, yubiley münasibətilə mətbuat işçilərini təltif etməsi, onlara fəxri adlar verməsi ölkəmizdə jurnalist əməyinin qiymətləndirilməsinin bariz nümunəsidir".

UNEC-in "Azərbaycan dili kafedrasının müdiri, professor Tofiq Əbdülhəsənli isə deyib ki, cəmi 2 il çap olunan və bu dövr ərzində 56 nömrəsinin işıq üzü gördüyü "Əkinçi" bu qısa müddət ərzində Azərbaycan jurnalistikasının bayraqdarına çevrildi: "Əkinçi"dən sonra yaranan "Ziya", "Ziyayi-Qafqaziyyə, "Həyat", "İrşad", "Şərqi-rus", "Kaspi", "Molla Nəsrəddin" kimi mətbu nümunələr ilk qəzetimizin ideyalarını davam etdirməyə başlamışdılar. "Əkinçi"nin fəaliyyəti və H.Zərdabinin elmi irsi Azərbaycanın alim və tədqiqatçıları tərəfindən dərindən araşdırılıb, neçə-neçə kitab və monoqrafiyalar, məqalələr çap olunub. Bu gün isə Azərbaycan mətbuatı tamamilə yeni mərhələdə inkişaf edir. Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran media inkişaf etməkdədir. Şəffaflıq və vətəndaş həmrəyliyi, ictimai maraqların üstün tutulması, qabaqcıl texnologiyaların mənimsənilməsi və s. müasir medianı xarakterizə edən əsas meyarlardır. 145 il öncəki və bugünkü mətbuatımızı müqayisə etsək, nə qədər böyük fərq olduğunu görərik".





Qonaqları əvvəlcə 17 noyabr Milli Dirçəliş Günü münasibətilə təbrik edən SƏS Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev əsas məruzəçi qismində çıxışına haqlı və ədalətli mübarizəmiz, Qarabağımızın düşmənin işğalından azad olunması uğrunda 44 gün davam edən və şanlı tarix səhifəmizə Vətən müharibəsi kimi yazılan möhtəşəm qələbə barədə başlayıb: "Bu qələbə hər birimizin qələbəsidir və məhz bizlər xalq olaraq Müzəffər Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Onun birbaşa rəhbərliyi, sərkərdəliyi və Ordumuzun rəşadəti ilə bu tarixi uğuru qazandıq. Tükənməz inam və ruh yüksəkliyi ilə əldə edilən Qarabağ zəfərimiz artıq nəinki bizim, eləcə də dünyanın hərb tarixinə, dərsliklərə yazılacaq bir reallıqdır, həqiqətdir, gerçəklikdir. Əbəs deyil ki, milli və mədəniyyət ocağımız olan Şuşa şəhərinin işğalından azad olunması günü Prezident İlham Əliyev cənabları özünün tarixi müraciətində Ulu Öndər Heydər Əliyevin vəsiyyətini həyata keçirdiyini vurğuladı. Bəli, məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev daim torpaqlarımızın işğaldan azad olunması üçün çox böyük işlərin əsasını qoydu və bu missiyanı layiqli davamçısı, siyasi varisi cənab İlham Əliyevə həvalə etdi. Bu, Onun uzaqgörən siyasətinin məntiqi nəticəsidir ki, artıq Qarabağımız azadlığa qovuşub, Azərbaycanın ərazi bütövlüyü bərpa olunub".



SƏS Media Qrupun rəhbəri əlavə edib ki, qələbə ilimizlə üst-üstə düşən daha bir xoş təsadüf Azərbaycan Milli Mətbuatının yaradılmasının 145-ci ildönümüdür və mətbuatda çalışan şəxs olaraq, biz ikiqat sevinc hissi yaşamaqdayıq: "Belə ki, Azərbaycan Mətbuatının 145 illiyi münasibətilə keçirilən tədbirlər Milli Mətbuatımızın cəmiyyətdə rolunun daha da artırılmasına, dövlət və mətbuat arasında olan sağlam münasibətlərin daha da inkişafına xidmət edir. Əbəs deyil ki, mətbuat həm də dördüncü hakimiyyət adlandırılır. Çünki dövlətçilik təməllərinin möhkəmləndirilməsində, təbliğində və dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında medianın əvəzsiz rolu vardır. Xatırlatmaq istərdim ki, 30 iyun 2020-ci ildə Cənab Prezident İlham Əliyev Milli Mətbuatımızın 145 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun. Eyni zamanda, Sərəncamda Prezident Administrasiyasına koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etmək tapşırılıb. Bugünki tədbirin də qaydalara uyğun keçirilməsi məhz sərəncamdan irəli gələn tələblərdir.

B.Quliyev həmçinin "Səs" qəzetinin yarandığı dövrdən indiyədək qazandığı tarixi nailiyyətlərə də toxunub: "Ümumiyyətlə, istər yarandığı vaxtlarda, istərsə də hazırkı dövrdə "Səs" qəzetinin ətrafında Ulu Öndəri sevənlər cəmləşib. Həmçinin, bütün zamanlardakı fəaliyyətinə nəzər salarkən, deyərdim ki, qəzetimiz sağlam ideyanın cəmiyyətə çatdırılması missiyasını şərəflə, vicdanla və mərdliklə yerinə yetirib. Qəzetimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun ideyalarının cəmiyyətə çatdırılması istiqamətində böyük, hətta deyərdim ki, əvəzolunmaz işlər görüb. Bu, danılmaz faktdır. Həmin dövrlərdə ziyalıların Heydər Əliyevə müraciəti, Ulu Öndərin isə ziyalılara cavabı məhz "Səs" qəzetində dərc olundu və bu addım sonradan ölkənin ictimai-siyasi həyatına köklü dəyişikliklərə səbəb oldu. Məhz bu xidmətin nəticəsidir ki, Ulu Öndər Heydər Əliyev öz çıxışlarında hər zaman vurğulayardı: ""Səs" qəzeti mənim üçün ən əziz qəzetdir". O, qəzetin xidmətlərini xüsusi qiymətləndirir, əmin olduğunu bildirirdi ki, qəzet daim inkişaf edəcək, modernləşəcək. Onun bu uzaqgörənliyi hazırda reallaşıb və təsdiqini tapıb.

"Səs" qəzeti yarandığı gündən yenilənməyə meylli olub, daim inkişafda və bu sahədə hər bir dəyişiklikdən, yeniliklərdən bəhrələnməyə çalışıb. Qəzetimiz hər zaman informasiya məkanının genişlənməsi, informasiya texnologiyalarının tərəqqisi istiqamətində əldə edilən yeniliklərdən maksimum şəkildə faydalanmağa çalışmışdır. Qəzet modernləşərək öz bazasında "Səs" İnformasiya Agentliyini (SİA) və SƏS TV internet televiziyasını yaradıb. Bu bazalar ətrafında bir neçə portal da fəaliyyət göstərir. Bu gün "Səs" İnformasiya Agentliyi dünyanın bir çox tanınmış informasiya agentlikləri ilə əməkdaşlıq edir, informasiya mübadiləsi aparır. Lakin biz bununla da kifayətlənmirik və yaxın gələcəkdə əhatə dairəmizin daha da genişlənməsi üçün fəaliyyət planlarımız üzərində işlər aparırıq".

Digər çıxış edənlər də Azərbaycan mətbuatının inkişaf tarixinə və müasir dövrdə jurnalistikanın aktual problemlərinə toxunublar və Vətənimizin, dövlətimizin və dövlətçiliyimizin inkişafı naminə milli mətbuatımızın bundan sonra da həmrəylik nümayiş etdirəcəyinə əminliklərini ifadə ediblər.

***Ceyhun Rasimoğlu***

# Rusiya eksperti: “Paşinyan müharibənin baş verməsi üçün hər şeyi etdi”

*“Əliyevin dövlət başçısı və ali baş komandan kimi daha yaxşı olduğu ortaya çıxdı. Buna görə də bu müharibəni o qazandı”*



***“Pravda”nın internet tv variantında baş redaktor İnna Novikovaya müsahibə verən Rusiya hərbi eksperti, “Milli Müdafiə” jurnalının rəhbəri İqor Korotçenko son günlərdə baş verən ən vacib hadisələr və mümkün inkişaflar barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

- İqor, təxminən 3 həftə əvvəl proqramımızda Qarabağdakı müharibənin Azərbaycanın qələbəsi ilə başa çatacağını qeyd etdiniz. Hər şey elə də oldu. İndi dinc bir həyat haqqında düşünməyin zamanı gəldi. Azərbaycan Prezidenti Qarabağ sakinlərinə sadiqliyini, onlara xüsusi hüquqlar verməyə hazır olduqlarını bildirdi. Ancaq eyni zamanda işğalçıların qovulduğunu söylədi. İşğalçılar erməni hərbçiləridir, yoxsa Qarabağda yaşayan dinc insanlar da daxil olmaqla bütün ermənilər?

- İşğalçılar ifadəsi, şübhəsiz ki, Qarabağ ərazisində Azərbaycanın silahlı qüvvələrinə qarşı müntəzəm vuruşan Ermənistan ordusunun bölmələrini nəzərdə tutur. Azərbaycan pilotsuz təyyarələrinin zərbələrinin görüntüləri göstərdi ki, ən son müasir müharibə vasitələri ilə silahlanmış bölmələr Ermənistan ərazisindən Qarabağa göndərilib.

“Müdafiə Ordusu” adlanan hərbi birlikləri var idi, lakin silahlı birləşmələri hələ də köhnə Sovet texnologiyasından istifadə edirdi.

### Müasir ordular döyüşdü

Ermənistanın bu il aldığı və Ermənistanda yerləşdirilən ən yeni hava hücumundan müdafiə sistemlərini Ermənistanda görürük. Və birdən-birə bunlar Qarabağ ərazisində peyda olur. Buna görə də, nizamlı Ermənistan ordusunun Azərbaycan ordusu ilə vuruşduğu aydındır.

Yerevandakı etirazçılar və siyasətçilər bu məğlubiyyətin “xəyanət”, “satın alınan bir zəfər” olduğunu söylədilər. “Kiməsə pul verildi”, “kimsə xəyanət etdi” və s. Ancaq bunlar duyğulardır.

Müharibə qanlı, qəddar bir şeydir. Müharibədə səni öldürürsən və ya ölürsən, qazanırsan və ya itirirsən. Müharibədə danışıqlar aparan yoxdur. Burada hər şey, belə demək mümkünsə, ədalətlidir.

Bir tərəfdə sən, digər tərəfdə düşmən döyüşür. Daha yaxşı texniki təchizata, daha təsirli komandirlərə və döyüşçülərə sahib olan qələbə qazanır. Burada təsadüflər yoxdur.

Bu müharibənin nəticəsi ilə bağlı proqnozlar verəndə hansısa bir tərəfə qarşı heç bir rəğbətim yox idi. Hərbi əməliyyatlar teatrını, potensiallarını, imkanlarını və tərəflərin silahlarının effektivliyini qiymətləndirməyin əsas prinsipi əsasında düşündüm.

### Ermənistan üçün şok

Paşinyan nə ordunu, nə də ölkəni müharibəyə hazırlamamışdı. Paşinyan təslim oldu. Bu gün o, erməni xalqının gözündə milli xaindir. Məğlub olan hər bir siyasətçinin taleyi budur. Ermənistan üçün bu, şübhəsiz ki, psixoloji sarsıntıdır.

İnsanlar bunu hələ dərk edə bilmirlər. Bəzi insanlar sadəcə bir reaksiya göstərirlər- gerçəyi inkar edirlər. Ancaq bunlar həqiqətdir, həqiqət budur. Bu satın alınmış müharibə deyil, bu, Azərbaycanın hərbi qələbəsidir.

Əliyevin prezident- dövlət başçısı və ali baş komandan kimi daha yaxşı olduğu ortaya çıxdı. Buna görə də bu müharibəni daha pis olduğu ortaya çıxan Paşinyana qarşı qazandı.

### Paşinyan müharibəyə yol açdı

Eyni zamanda, Paşinyan bu müharibənin baş verməsi üçün hər şeyi etdi. Bu müharibənin qapılarını sözün əsl mənasında açdı.

İndi ayaqlarını yerə vurub xəyanət edildiyini bağırmaq mənasızdır. Ermənistan vətəndaşları olan seçicilər Paşinyana səs verdilər, ona görə də, bu gün bütün iddiaları yalnız Paşinyana deyil, özlərinə də bildirməlidirlər.

Bəli, səhv bir seçim edildi. Bu barədə Ermənistanda rəngli məxməri inqilabın başlanğıcından bəri danışdıq. Rəngli inqilab, ərazi itkisi, dövlətin dağıdılması və insanların əzabından başqa heç kimə heç nə gətirmir.

Heç bir yerdə, dünyanın heç bir ölkəsində rəng inqilabı yaxşılıq gətirməyib. Bu barədə dürüst, erməni tərəfdaşlarımıza açıq danışdıq. KTMT-yə çirkab atma, Rusiya şirkətlərinə qarşı zülm, Putinə hörmətsizlik, anti-Rusiya şüarları ilə nə baş verdiyini eşitdiniz və gördünüz. Ancaq bağışlayın, qızardılmış xoruz yerə çırpıldığı zaman, şampan içmək çox gecdir.

Erməni piyada qoşunları inadla və cəsarətlə vuruşdular, lakin Azərbaycan piyada qoşunlarının bu dəfə daha yaxşı təlim görmüş və motivasiyalı olduğu ortaya çıxdı. Şuşaya hücum edənlər hansısa türk xüsusi qüvvələri deyildi. Şəhəri Azərbaycan əsgəri azad etdi.

Bunu dərk etmək lazımdır və həddi aşmaq lazım deyil. Bütün iddialar özünüzə ünvanlanmalıdır. Əlbətdə siyasətçilər də günahkardır və buna görə məsuliyyət daşıyırlar.

Kütlə Paşinyanı axtarır, parlamenti dağıdır, baş nazirin iqamətgahını və hökumət binasını darmadağın edir. İnsanlar Paşinyanın bu müharibəni uduzmasına görə bağışlaya bilmir. Axı bu, bütün erməni cəmiyyətinə çox böyük zərbədir.

### Amerika sizə kömək etdi? ...

Təəssüf ki, Rusiya Federasiyası ilə əlaqələrin kəsilməsi, bütün yüksək vəzifələrin qərbyönümlülərlə doldurulması, Ermənistan və Rusiya arasındakı uçurumu daha da artıran bu nəticəyə səbəb oldu.

Paşinyanı müharibəni uduzduğu bir vəziyyətə gətirdilər. Arxasında postsovet məkanındakı ən böyük ABŞ səfirliyi dursa da. Soros və Amerika Birləşmiş Ştatları onun arxasında dayanmışdı.

Çox təəssüf ki, hər iki tərəfdə itirilən canlar oldu. Minlərlə insan öldü, mülki şəxslər yaralandı. Bu, böyük bir faciədir, amma bugünkü həqiqətlər belədir. Paşinyan məğlub oldu, ancaq erməni xalqı əziyyət çəkir.

*(Davamı olacaq)*

***Tərcümə: Elçin Bayramlı***

## Keçmiş erməni hərbi komissar: “On minədək fərarilik edən oldu”



“Qarabağdakı döyüşlərdə on min erməni zabit və əsgər fərarilik edərək mövqelərini tərk ediblər, qaçıblar. Bu halları diqqətsiz qoymaq olmaz, çünki çox təhlükəli presedentə çevrilə bilərlər”. SİA-nın məlumatına görə, bunu Ermənistan Silahlı Qüvvələrinin Qərargah rəisinin sabiq müavini, ölkənin keçmiş baş hərbi komissarı, general-mayor Levon Stepanyan Sputnik Armenianın efirində deyib.

“Döyüş mövqelərini atıb qaçan çoxsaylı fərarilərimizin olduğunu Qarabağda hərbi əməliyyatların iştirakçıları və hüquq-mühafizə orqanlarının əməkdaşları təsdiqləyirlər. Belə şəraitdə nə etməliyik? Təbii ki, kimsəni bağışlamaq olmaz. Digər tərəfdən, bu qədər insanı cinayət məsuliyyətinə cəlb etmək də mümkün deyil. Onları həbs etmək olmayacaq. Deməli, alternativ cəza yolları tapılmalıdır. Hakimiyyət bu hallara indi göz yumarsa, sonrası pis olacaq”, - L.Stepanyan söyləyib. Stepanyanın sözlərinə görə, fərarilərə hamilik edənləri, onların cinayətlərini ört-basdır edənləri də cəzalandırmaq gərəkdir.

Xatırladaq ki, Dağlıq Qarabağdakı terrorçu xuntanın rəhbəri Araik Harutyunyan da ermənilərin döyüşlərdə kütləvi şəkildə fərarilik etdiklərini söyləmişdi. Noyabrın 11-də o, Facebookdakı canlı yayımda demişdi: “Əgər kiməsə satqınlıqda suçlamaq gərəkdirsə, onda bütün erməni xalqı ittiham olunmalıdır. Döyüşlərdə bəzi hissələr və birləşmələr sursat çatışmazlığını bəhanə edərək qaçdılar. Bəzi birləşmələr ön səngərlərdə yer tutmaqdan boyun qaçırdılar”.

***Rövşən***

## Avropa Komissiyasının eksperti ermənilərin Qarabağda törətdikləri dağıntılar barədə məlumatlandırılıb



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovartla onlayn görüş keçirib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistanın işğalçılıq siyasətinin nəticələri və ölkəmizin humanitar ehtiyacları müzakirə olunub.

F.Hüseynov Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun sentyabrın 27-dən noyabrın 10-dək apardığı əks-həmlə əməliyyatı haqqında məlumat verib. Bildirilib ki, bu əməliyyat nəticəsində Azərbaycan özünün ərazi bütövlüyünü bərpa edib. Eyni zamanda, qeyd edilib ki, hərbi əməliyyatlar zamanı Ermənistan silahlı birləşmələrinin ölkəmizin cəbhə zonasından uzaq yaşayış məntəqələrini artilleriya və raket atəşinə məruz qoyması nəticəsində mülki şəxslər, o cümlədən məcburi köçkünlər arasında ölənlər və yaralananlar var. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə istifadəyə verilmiş qəsəbələr də daxil olmaqla, 300-dən çox müvəqqəti məskunlaşma obyekti qismən, yaxud tamamilə dağıdılıb. Mütəmadi atəşə tutulan Ağdam, Tərtər, Goranboy, Füzuli, Bərdə və Cəbrayıl rayonlarında məskunlaşmış köçkünlər digər rayonlara təxliyə olunub. Bu ailələrin ərzaq, qeyri-ərzaq, tibbi yardım və digər ləvazimatlara ehtiyacı var.

Bundan başqa, diqqətə çatdırılıb ki, 30 ilə yaxın işğal altında saxlanılan rayonlar tamamilə dağıdılıb, yaşayış üçün yararsız hala salınıb. Ermənilər indi də vandalizm əməllərindən əl çəkmirlər. Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin bu il noyabrın 10-da imzaladıqları bəyanata uyğun olaraq, Kəlbəcər rayonunu tərk edən ermənilər evləri, məktəbləri, meşələri yandırır, ağacları kəsib aparırlar. Halbuki, azərbaycanlılar doğma yurdlarını tərk edən zaman özləri ilə heç nə apara bilməmişdilər.

Qeyd olunub ki, Azərbaycan 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərinə dəyən zərərin qiymətləndirilməsinə ekspertlər cəlb edəcək. Dövlət məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün bütün zəruri tədbirləri görəcək.

Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovart bildirib ki, missiyanın məqsədi Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında humanitar əməkdaşlığı müzakirə etmək, həmçinin Aİ tərəfindən edilə biləcək yardımların formasını, eyni zamanda, Qarabağda gələcəkdə nəzərdə tutulan bərpa və quruculuq işlərində dəstəyini müəyyənləşdirməkdir. Missiya məcburi köçkünlərin, eyni zamanda, hərbi əməliyyatlar zamanı zərər görmüş mülki şəxslərin ehtiyaclarını öyrənəcək və Avropa İttifaqının bu ailələrə necə dəstək verəcəyini müəyyən edəcək. Onlayn görüşdə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas da iştirak edib.

# Azərbaycan xalqı qalib xalqdır



Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı zamanı rəşadətli ordumuz bir-birinin ardınca düşmənə ağır zərbələr vuraraq təcavüzkar ölkənin siyasi-hərbi rəhbərliyini çıxılmaz vəziyyətə saldı. 44 gün davam edən müharibədə vətən torpağının erməni işğalçılarının təcavüzkar siyasəti nəticəsində işğal altında olan torpaqlarımız işğalçılardan azad olundu". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib.

O qeyd edib ki, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müracət xalqın tarixində yeni bir səhifədir. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu erməniyə, eləcə də bütün dünyaya göstərə bildi: "Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Prezident İlham Əliyev qətiyyətini, siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Dövlət başçısının mövqeyi ardıcıl olaraq dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində də özünü biruzə verdi və ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən ermənilər təcavüzkar siyasətlərini davam etdirərək, dinc əhalini hədəfə aldılar və yaşayış məntəqələrini ballistik raketlərdən atəşə tutdular. Bu müharibədə Azərbaycan mülki insanlarla müharibə aparmadı və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyildi. Amma Ermənistan tərəfindən mülkü əhaliyə dəfələrlə atəş açıldı. Bərdə, Gəncə, Tərtər kimi şəhərlərimiz ziyan çəkdi. Mənfur düşmən tərəfindən 94 mülki şəxs qətlə yetirildi. 400-dən çox mülki şəxs yaralandı. Azərbaycan ordusu, əsgəri isə intiqamını hər zaman döyüş meydanında aldı".

Azərbaycan Silahlı Qüvvələrinin hədəfində isə yalnız işğalçı ölkənin hərbi birləşmələri idi. Cəbrayıl, Füzuli, Zəngilan və digər şəhər, qəsəbə və kəndlərin alınması Azərbaycan xalqına qələbə sevincini yaşadırdı, deyən rayon təşkilat sədri vurğuladı ki, noyabrın 8-də rəşadətli ordumuzun Şuşaya Azərbaycan bayrağını sancması Ermənistanın siyasi-hərbi rəhbərliyinə ağır bir zərbə oldu: "28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", deyən Azərbaycan Prezident Cənab İlham Əliyev onu da bildirdi ki, bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! "Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək", deyən dövlət başçısı bunun asan məsələ olmadığını qeyd edib: "O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq". Amma qeyd etmək yerinə düşər ki, Şuşa işğal altına düşəndə Azərbaycan belə gücə malik deyildi. İqtisadiyyatımız böhran dövrünü yaşayırdı, ölkədə də hərc mərclik hökm sürürdü. Bu gün isə artıq Azərbaycan iqtisadi gücə, nizami milli ordusu var".

Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", deyə bildirən Cənab Prezident onu da qeyd edib ki, torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir".Bu tarixi qələbəni bəzə yaşadan əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevdir. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Rayon təşkilat sədri Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanata da diqqəti çəkərək bunun mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası olduğunu bildirdi. O qeyd etdi ki, döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bəyanatda göstərilir ki, Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq: "Bəyanatdan da göründüyü kimi, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək təhvil verməli idi. Amma Ermənistan tərəfi ordunun və qanunsuz olaraq yerləşdirilmiş insanların rayondan çıxarılması üçün əlavə 10 gün vaxt istədi. Azərbaycan dövləti, Prezident İlham Əliyev həmişə olduğu kimi humanizm prinsiplərinə böyük üstünlük verib".

30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımıza ayaq basırıq. Bu gün Şuşadan ucalan azan səsi Qarabağa yayılır, deyən H.Qurbanov ərazilərimizdə qeyri-qanuni məskunlaşmış ermənilərin gedərkən evlərini, meşələri yandırdığını və ekologiyaya böyük ziyan vurduğunu söylədi: "Ağacları kəsərək özləri ilə aparır, heyvanları belə qəddarlıqla tələf edirlər. Təbii ki, bütün bu əməllər dünyaya erməni xislətinin bir mesajı olaraq yayılır. Bu vandalizmin və barbarlığın təzahürüdür. Ermənilər faşist ideologiyasın hər zaman nümayiş etdirir. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı qalib xalqdır və bütün bəşəriyyətiə öz məğrurluğunu, ədalət prinsipini, humanizmini və ən əsası da gücünü göstərə bildi".

***Zümrüd BAYRAMOVA***

## Qələbənin müzəffər akkordları



"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır"! Bu sözlər milli birliyimizin ifadəsi olaraq son günlərin başlıca şüarına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin vəsiyyətinə sadiq qalaraq Dağlıq Qarabağı düşmən ünsürlərdən təmizləyərək Vətən müharibəsini uğurla başa çatdırmaqla yeni tarix yazan şanlı Azərbaycan Ordusu möcüzələr yaratdı və müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük cəsarəti, mərdliyi və dönməzliyi sayəsində xalqımızı əvəzsiz utancdan qurtarması ilə "əsrin müqaviləsindən əsrin qələbəsinə" aparan milli-tarixi missiyanı qətiyyətlə başa çatdırdı.

Qarabağ savaşı - Vətən müharibəsi bir daha göstərdi ki, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin icrasının təmin edilməsində ermənilərlə yanaşı çoxları maraqlı deyildi. Təəssüf ki, bu mənzərə gözlərimiz önündə cərəyan edən acı reallıq idi. Dözdük, səbr etdik. Amma əyilmədik. Öncə sosial-iqtisadi islahatlarla ölkəmizi dirçəltdik, idarəetmə sistemini modernləşdirik, milli təhlükəsiz sferasını, o cümlədən Ordu quruculuğunun mobilləşdirdik, bir çox beynəlxalq miqyaslı sosial-iqtisadi və mədəni-humanitar layihələrlə ölkənin nüfuzunu qaldırdıq. Hər şeyi təmin etməklə müqəddəs məqsədə hazırlaşdıq. Şükürlər olsun ki, bu anı dəqiq müəyyənləşdirməklə ümumxalq səfərbərliyinə arxalanaraq düşmən üzərinə yürüdük. Qara bəxtimizə çevrilmiş Qarabağımız yeni ağ günlərimizin meyvəsinə çevirdik. Ən müasir silahlarla ən mobil Ordu ilə ən sivil Vətən müharibəsi apardıq və qalib gəldik. Şükürlər olsun bu günləri bizlərə bəxş edən Ulu tanrıya, cəsarətli Prezidentə və Müzəffər Ali Baş Komandana, nəhayət şanlı Milli Orduya və dəmir yumruğa çevrilmiş xalqımıza!

Qələbənin şərtləndirən bir neçə amili xüsusilə qeyd etmək isyəyirəm.

- Ən son, ən müasir "beşinci nəsil" silahlar adlandırılan döyüş texnologiyalarına malik olan Ordumuz dünyanın ən inkişaf etmiş ölkələrinin Silahlı Qüvvələri ilə müqayisə ediləcək Müdafiə qabiliyyəti nümayiş etdirdi.
- Xalqımızı zəngin döyüş təcrübəsinə malik olan ehtiyatda olan əsgər və zabitlərimizin könüllü olaraq Orduya yazılma kampaniyasının vüsəti döyüş bölgəsinin daha çevik malik hərbi birləşmələrə komplektləşdirilməsi qələbəmizə təkan verən mühüm amil oldu.
- Silahlı qüvvələrimizin yüksək döyüş hazırlığı, peşəkar hərbi təlim səviyyəsi ilə bərabər milli-vətənpərvərlik ruhu da qələbəmizin rəmzi idi. Bu, Şuşanın azad edilməsi zamanı çətin coğrafi-şəraitdə göstərilən müzəffər qələbə ruhunun nümayişi olaraq Vətən müharibəsinin şanlı səhifəsi idi. Xüsusilə, döyüş bölgəsində düşmən tərəfinin xəstələri ilə, əsgərləri ilə, mülki əhalisi ilə davranışları baxımından da döyüşçülərimiz yüksək mənəvi səviyyə göstərdilər.
- Arxa cəbhədə xalqımızın milli birliyinin nümayişi də əsgərlərimizin yüksək döyüş ruhunu təmin edilməsinə güclü təsir göstərdi.
- Ali Baş Komandana göstərilən ümumxalq dəstəyi, onun daha qətiyyətli və əzmkar qərarlarına rəğmən xalqımızın yüksək milli həmrəylik və vətəndaş yekdiliyi nümayiş etdirməsi Vətən müharibəsində xalqla iqtidar birliyinin əzəmətini göstərdi.
- Ölkə prezidenti və Ali Baş Komandan olaraq İlham Əliyevin televiziya ilə xalqa müraciətləri təkcə siyasi publisistikanın klassik nümunəsi deyildi, daha çox ailədən gələn milli-vətənpərvərlik ruhunun coşqusu idi, nəhayət, onu bir sərkərdə olaraq yüksək hərbi peşəkarlığına istinad edən ağsaqqallıq məharətini də göstərdi. Onun çıxışları nəinki hərbi-səfərbərlik ruhu aşılayırdı, həm də xalqın və ordunun milli ruhunu silkələyir, döyüş əzmini və orduya dəstək vüsətini təmin etmək baxımından, nəhayət, döyüşün başlamasından bitməsinədək atılan addımların beynəlxlaq hüquq və sivil müharibə qaydaları ilə bağlayan tamamlayıcı çıxışlar olaraq da tarixə düşmüşdür. Bir sözlə ikinci Qarabağ savaşı-Vətən müharibəsi kimi tarixə düşmüş 44 günlük müharibənin dərsləri illərlə öyrəniləcək tariximizin şanlı səhifəsi olaraq təqdir olacaq, ölkəmizi İlham Əliyevin simasında yeni-yeni uğurlara aparacaqdır.

***Bayram Bayramov,***
***Ədliyyə nazirliyinin İcra baş idarəsi Analitik-nəzarət şöbəsinin əməkdaşı***

## Məşhur Məmmədov: "Bu qələbə Ali Baş Komandanımızın zəfər müjdəsidir!"

"30 illik münaqişə 44 gündə Azərbaycanın Zəfər qələbəsi ilə bitdi. 1990-cı illərin əvvəllərində torpaqları işğal olunan Azərbaycan dövləti bu illərdə istənilən yolla torpaqlarını işğaldan azad edəcəyini bəyan etmişdi. Artıq zaman yetişdi və Ordumuz 44 gün ərzində işğal altında torpaqlarımızın böyük bir qismini, Qarabağın ürəyi, iyirmi səkkiz il yarım işğal altında olan Şuşanı azad etdi! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. Azərbaycan öz qələbəsi ilə həm də Ermənistanı məğlubiyyət aktına imza atmağa məcbur etdi. Ermənistanın kapitulyasiyasının təsdiqi olan bəyanata əsasən bu gün Kəlbəcər rayonu Azərbaycan Ordusunun nəzarətinə keçir. Noyabrın 20-dək Ağdam, dekabrın 1-nə qədər isə Laçın rayonundan işğalçı qüvvələrin qalıqları çıxarılacaq". Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Məşhur Məmmədov "SƏS" qəzetinə açıqlamasında bildirib.



"Bu qələbə Prezident İlham Əliyev cənabalarının bütün məsələlərdə özünün qətiyyətli və cəsarətli mövqeyini ortaya qoyması, siyasi uzaqgörənliyi, milli maraqları təmin edən siyasət yürütməsi, 44 gün ərzində beynəlxalq təzyiqləri layiqincə dəf etməsidir",- deyən M.Məmmədov onu da vurğulayıb ki, ən əsası, Ali Baş Komandan bir daha bütün dünyaya sübut etdi ki, heç bir qüvvə Azərbaycanı özünün haqq yolundan döndərə bilməz: "30 il gözlədiyimiz o möhtəşəm tarix yetişdi. Bu tarix - 10 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix! Böyük Qələbə tarixidir!. Müzəffər Ordumuzun 44 gün ərzində döyüş meydanında gücünü göstərdiyi, qəhrəmanlıqla savaşaraq qələbə qazandığı, Ali Baş Komandanımızın qətiyyətli mövqeyi, Azərbaycan əsgər və zabitinin şücaəti, xalqımızın birliyi, həmrəyliyi tarixidir! Bu tarixdə düşmənin müqaviməti qırıldı və 10 noyabr şanlı tariximizə Zəfər günü kimi yazıldı".

M.Məmmədov onu da bildirib ki, dövlət başçımız xalqa müraciətində də bu qələbənin bütün Azərbaycan xalqının qələbəsi olduğunu deyib: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq!"

"Bəli, dövlət başçımızın dediyi kimi, düşməni torpaqlarımızdan qovaraq Vətən Müharibəsinin 44-cü günü ordumuz Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələri darmadağın etdi və 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi", - deyən M.Məmmədov vurğulayıb ki, 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı.

***RƏFİQƏ HÜSEYNOVA***

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

# ELAN

MİDA

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 27, 4 saylı binası üzrə 121, 5 saylı binası üzrə 260 və 6 saylı binası üzrə 93 mənzilin, ümumilikdə 501 mənzilin satışı 18 dekabr 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 28 dekabr 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 22 dekabr 2020-ci il tarixində saat 11:00-da başlayacaq və 28 dekabr 2020-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 501 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 08.05.2018-ci il tarixli 25318 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 9 | 37,9 - 38,8 | 47,7 - 48,82 | "HN Construction" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 "Perlit" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 15 | 49,9 - 63,1 | 61,9 - 76,49 | | |
| | | | | 3 | 3 | 69,4 - 72,8 | 86,18 - 88,15 | | |
| 4 | 7076,02 | 7 | 18 | 1 | 26 | 37,9 - 39,2 | 47,85 - 49,96 | "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, ev 1937-ci məhəllə | 31 mart 2020-ci il |
| | | | | 2 | 90 | 49,9 - 68 | 61,39 - 83,52 | | |
| | | | | 3 | 5 | 67,2 - 72,1 | 84,99 - 86,68 | | |
| 5 | 7076,02 | 7 | 18 | 1 | 40 | 37,9 - 39,2 | 47,7 - 49,96 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143; "Araz İnşaatçı" MMC (binanın 3-cü, 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 28 fevral 2020-ci il; 29 mart 2020-ci il |
| | | | | 2 | 191 | 49,9 - 69,3 | 61,39 - 84,11 | | |
| | | | | 3 | 29 | 67,2 - 73,3 | 84,39 - 88,15 | | |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 13 | 37,9 - 39,1 | 48,08 - 49,96 | "MƏK-AN" MMM (binanın 4-cü seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N; "SNT" İnşaat Şirkəti (AKA Şirkəti ilə konsorsium) (binanın 5-ci seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 28 | 29 mart 2020-ci il |
| | | | | 2 | 70 | 49,9 - 68 | 61,39 - 83,52 | | |
| | | | | 3 | 10 | 67,5 - 73 | 85,32 - 87,86 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 215** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
